Müəllif: *Elşən Həsənov / tst.az (Tender-Satınalma-Təchizat) portalının təsisçisi*

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair **TƏKLİFLƏR**

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
1.	**Nəzarət** *(satınalma komissiyasının qərarlarının təsdiq edilməsi)* Hər bir yekun protokola, kənarlaşmaya, ləğvə və ya satınalma komissiyasının verdiyi digər qərarlara nəzarət orqanının müəyyən olunmuş müddətdə münasibət bildirməli, təsdiq edib-etməməli olması həm satınalan təşkilatın müstəqilliyini və məsuliyyətini azaldır, həm bunu etməklə satınalan təşkilatın qərarlarına ortaq olmuş olur, həm digər nəzarət qurumlarının səlahiyyətləri ilə üst-üstə düşür, həm şikayətə baxılma zamanı maraqlar toqquşması yaradır (öz qərarını mübahisələndirir), həm konkret hansı məqamların yoxlanılmalı olduğu və hər məqama necə münasibət bildirməli olduğu müəyyən olmadığından qeyri-dəqiqlik yaradır, həm hər sahə üzrə ekspert olmadığından obyektiv qərarlar verilə bilinmir, həm də kifayət qədər resurs tələb etdiyindən çevik icrası mümkün olmur. Ümumiyyətlə bütün satınalmaların tək-tək yoxlanılması praktikası müasir dövlət satınalmalarına nəzarət praktikasında demək olar	Yekun protokolun, kənarlaşma və ləğvin nəzarət orqanı tərəfindən təsdiq edilməsi və avtotəsdiqlər qanundan çıxarılsın Satınalmanın bütün metodlarının (bir mənbə) və mərhələlərinin (xüsusilə müqavilə) elektronlaşdırılaraq satınalmalara nəzarətin "red flags" əsasında formalaşdırılması. Open Contracting Partnership tərəfindən satınalma məlumatlarından istifadə etməklə müəyyən edilə bilən 73 "red flags" meyarı (alqoritmi) formalaşdırılıb. Bu meyarlardan uyğun olanları seçilib daxili əmrlə təsdiq edilsin və açıqlanmasın. Ümumi monitorinq və şikayətlər əsasında	14.2.2. ~~satınalma planında göstərilən ehtimal olunan qiymətlə bağlı şübhələr olduqda onun dəqiqləşdirilməsi ilə bağlı satınalan təşkilatlara müraciət etmək, satınalma planında kənarlaşmalar aşkar etdikdə isə aradan qaldırılmasını tələb etmək~~ satınalma prosedurlarının nəzarət orqanının daxili qaydaları ilə müəyyən etdiyi risk meyarları əsasında monitorinqini aparmaq; ~~14.2.5. satınalma predmetinin həcminin (miqdarının) 10 faizə qədər artırılıb-azaldılmasına razılıq vermək;~~ 14.2.6 bu Qanunda nəzərdə tutulmuş hallarda satınalma komissiyalarının qərarlarından (protokollarından) ~~təsdiq olunub-olunmaması haqqında qərar qəbul etmək~~ bu Qanunun və normativ hüquqi aktların tələblərinin pozulması hallarının olmasına dair rəy vermək; 14.4.4. satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək ~~və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək~~; 14.4.6. bu Qanunun 45.3-cü maddəsinə əsasən satınalma predmetinin təchizatçılar arasında rəqabəti məhdudlaşdırdığı aşkar edildikdə satınalmanın ləğv edilərək oxşar satınalma predmetlərinin birləşdirilməsi və ya fərqli xüsusiyyətli satınalma predmetlərinin oxşar xüsusiyyətli satınalma predmetlərinə bölünməsi ilə təkrar keçirilməsi barədə qərar qəbul etmək; 17.1.8. satınalmanın nəticələri haqqında yekun protokolun hazırlanması ~~və təsdiq olunması məqsədilə nəzarət orqanına təqdim edilməsi~~;

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	istifadə olunmur, Fransa bir müddət tətbiq etmək istəyib lakin resurs məhdudiyyətinə görə dayandırıb. Dövlət satınalmalarına nəzarət əksər ölkələrdə şikayət əsasında, real-rejimdə monitorinq (Gürcüstan) və ya xüsusi layihələrə nəzarət (İtaliya, Milano sərgisi) əsasında aparılır. Cari qanunvericilikdə nəzarət mərhələləri və prosedurları çox olduğu üçün AİH və AZCON tabeliyində olan təşkilatlar prosedurları müstəqil apara bilmək üçün ümumiyyətlə qanunun tətbiq dairəsindən uzaqlaşıb, bu praktikanın davam etmə riski yüksəkdir	nəzarətə üstünlük verilsin.	~~18.7. Nəzarət orqanı bu Qanunun 18.6-cı maddəsinə əsasən dəqiqləşdirmə aparılmış satınalma planlarına 10 (on) iş günü ərzində baxır. Dəqiqləşdirmənin əsaslı olmasını müəyyənləşdirmək məqsədilə nəzarət orqanı satınalan təşkilatdan həmin satınalma proseduru ilə əlaqəli sənədləri (məlumatları) tələb edə bilər. Bununla bağlı edilən sorğulara satınalan təşkilat tərəfindən 5 (beş) iş günü ərzində cavab verilir. Nəzarət orqanı satınalma planında dəqiqləşdirmənin aparılmasına razılıq verməlidə, bununla bağlı əsaslandırılmış qərar qəbul edir və satınalan təşkilata bu barədə 3 (üç) iş günü ərzində məlumat verir. Nəzarət orqanı 10 (on) iş günü ərzində müvafiq qərarı qəbul etmədikdə, dəqiqləşdirməyə razılıq verilmiş hesab olunur və satınalma planı portalda yenilənir.~~ 18.8. ~~Bu Qanunun 3.8-ci maddəsində göstərilən hallar istisna olmaqla, s~~Satınalan təşkilat satınalmanı yalnız təsdiq edilmiş satınalma planına uyğun olaraq təşkil edir. ~~Satınalma planına daxil edilməyən hər hansı satınalma predmetinin satın alınmasına təcili tələbat yarandıqda, satınalan təşkilat əsaslandırılmış müraciətlə nəzarət orqanına müraciət edir. Nəzarət orqanı tərəfindən təsdiq edildikdən sonra satınalan təşkilat həmin satınalma predmetinin satın alınmasını həyata keçirə bilər. Nəzarət orqanı bu maddədə qeyd olunan hallarla bağlı 3 (üç) iş günü ərzində qərar qəbul edir.~~ 34.6. Satınalma komissiyası tərəfindən satınalmanın nəticələri haqqında yekun protokol tərtib edilir və komissiyanın bütün üzvləri tərəfindən imzalanır. ~~Yekun protokol təsdiq olunması məqsədilə gözləmə müddəti bitdikdən sonra 1 (bir) iş günü ərzində (şikayət olduqda bu Qanunun 37.3-cü maddəsinə uyğun olaraq cavablandırdıqdan sonra 1 (bir) iş günü ərzində) nəzarət orqanına təqdim olunur.~~ ~~34.7. Nəzarət orqanı yekun protokolu aldıqdan sonra 5 (beş) iş günü ərzində yekun protokolun təsdiq olunub-olunmaması haqqında və ya həmin müddət kifayət etmədikdə yekun protokola baxılma müddətinin 10 (on) iş gününədək uzadılması barədə əsaslandırılmış qərar qəbul edir. Nəzarət orqanı yekun protokolun təsdiq olunub-olunmaması haqqında qərarı 1 (bir) iş günü ərzində portalda yerləşdirir. Nəzarət orqanı yekun protokolu aldıqdan sonra 10 (on) iş günü ərzində yekun protokolun təsdiq olunub-olunmaması haqqında qərarı qəbul etmədikdə, yekun protokol təsdiq edilmiş hesab olunur və bu barədə məlumat dərhal portalda əks olunur.~~ ~~34.8. Yalnız yekun protokol təsdiq edildikdən sonra qalib təchizatçıya təklifin akseptinə dair bildiriş göndərilə və (və ya) satınalma müqaviləsi bağlana bilər, habelə çərçivə sazişi tətbiq ediləcəyi halda isə çərçivə sazişi bağlana bilər.~~

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			~~35.2. Bu Qanunun 35.1.7-ci maddəsində göstərilən hal istisna olmaqla, təchizatçıların satınalmadan kənarlaşdırılması haqqında qərar 1 (bir) iş günü ərzində nəzarət orqanına təqdim olunur. Nəzarət orqanı satınalma komissiyasının qərarını aldıqdan sonra 5 (beş) iş günü ərzində həmin qərarın təsdiq olunub-olunmaması haqqında qərar qəbul edir. Nəzarət orqanı 5 (beş) iş günü ərzində həmin qərarın təsdiq olunub-olunmaması haqqında qərarı qəbul etmədikdə, qərar təsdiq edilmiş hesab olunur.~~ ~~35.3. Bu Qanunun 35.1-ci maddəsində qeyd olunan hallar nəzarət orqanı tərəfindən müəyyən olunduqda, nəzarət orqanı həmin təchizatçıların satınalmadan kənarlaşdırılmasını satınalan təşkilatdan tələb edir.~~ ~~35.4. Nəzarət orqanı təchizatçıların satınalmadan kənarlaşdırılması haqqında satınalma komissiyasının qərarını təsdiq edərsə, satınalan təşkilat kənarlaşdırılma və onun səbəbləri barədə 1 (bir) iş günü ərzində portalda məlumat yerləşdirir. Satınalma kağız daşıyıcıda keçirildikdə satınalan təşkilat kənarlaşdırılma və onun səbəbləri barədə 1 (bir) iş günü ərzində həmin təchizatçılara poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla bildiriş göndərir.~~ ~~36.2. Satınalmanın ləğv edilməsi haqqında qərar 1 (bir) iş günü ərzində nəzarət orqanına təqdim olunur. Nəzarət orqanı satınalmanın ləğv edilməsi haqqında qərarı aldıqdan sonra 5 (beş) iş günü ərzində həmin qərarın təsdiq olunub-olunmaması haqqında qərar qəbul edir. Nəzarət orqanı bu müddət ərzində həmin qərarın təsdiq olunub-olunmaması haqqında qərarı qəbul etmədikdə, qərar təsdiq edilmiş hesab olunur.~~ 36.3. ~~Nəzarət orqanı satınalmanın ləğv edilməsi haqqında qərarı təsdiq edərsə, s~~Satınalan təşkilat satınalmanın ləğv edilməsi və onun səbəbləri barədə 1 (bir) iş günü ərzində portalda məlumat yerləşdirir. Satınalma kağız daşıyıcıda keçirildikdə satınalan təşkilat satınalmanın ləğv edilməsi və onun səbəbləri barədə 1 (bir) iş günü ərzində ~~kənarlaşdırılmamış~~ təklif təqdim etmiş təchizatçılara poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla bildiriş göndərir. 38.8. Satınalma ~~müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma~~ komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə ~~nəzarət orqanının razılığı ilə~~ satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər və bu barədə qərar satınalmanın nəticələri barədə yekun protokola daxil edilir. ~~38.9. Nəzarət orqanı bu Qanunun 38.8-ci maddəsində qeyd olunan razılığın verilməsi ilə bağlı müraciətlərə 3 (üç) iş günü ərzində baxır.~~

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			51.5. Çərçivə sazişi əsasında tələbata uyğun hər bir satınalmanın nəticəsinə dair protokol tərtib edilir və ~~məlumat üçün~~ 1 (bir) iş günü ərzində ~~nəzarət orqanına göndərilir~~portalda yerləşdirilir. ~~58.2. Nəzarət orqanı tərəfindən satınalan təşkilatın qərarlarının (protokollarının) təsdiq edilməsi və (və ya) onların hər hansı bir müraciətinə razılıq verilməsi həmin satınalan təşkilatı bu Qanunla nəzərdə tutulan məsuliyyətdən azad etmir.~~
2.	**Nəzarət** *(bir mənbə)* Bir mənbədən satınalma metodunun tətbiqinə dair müraciətlərdə həm nəzarət orqanını nəyə baxmalı olduğu, nə əsasında qərar çıxartmalı olduğu aydın deyil, həm də cari halda təqdim edilən məlumatları yoxlamaq üçün kifayət qədər alətləri yoxdur. Digər tərəfdən nəzarət orqanı qanuni əsası olmasa belə bəzi müraciətləri məcburi təsdiq etməli olur. Bundan başqa icazə verdiyi halda bəzi təşkilatlar müqavilələrini dərc etmirlər, bu halda məbləğ hesabata daxil edilsə də müqavilə olub-olmadığı bilinmir. Bir mənbədən satınalmalara dair müraciətlərə hər hansı effektiv və obyektiv yoxlama aləti, qiymətləndirmə meyarları olmadan baxıb subyektiv fikirlərlə və ya xüsusi tapşırıqlarla təsdiq və ya imtina etmək məcburiyyətinin olması;	1 hal *(dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi üçün zəruri hesab edildikdə və həmin siyasətin təşviqi digər heç bir təchizatçı vasitəsilə mümkün olmadıqda)* istisna olmaqda digər hallar nəzarət orqanı ilə razılaşdırılmasın. Həmin hal üçün Bir mənbə metodu tətbiq edilmək istənilən halda bu barədə ictimai şəkildə (məxfi satınalmalar istisna olmaqla) minimal müddətdə qüvvədə olan (gözləmə müddəti kimi) niyyət bildirişinin dərc edilməsi və həmin müddətdə digər təchizatçıların da bu satınalma üçün təklif verməsinə şərait yaratmaqdır. Digər bütün qərarların nəzarət orqanı ilə əvvəldən razılaşdırılması əvəzinə bu tələblərin daha konkretləşdirilərək səlahiyyətlərin satınalan təşkilata ötürülərək tam elektronlaşdırılması və nəticələrin real rejimdə monitorinqinin aparılması daha effektiv addımdır.	40.1.5. açıq tender, ikimərhələli tender və kotirovka sorğusu metodundan başqa digər satınalma metodları tətbiq edildikdə, bunu əsaslandıran səbəblər ~~və nəzarət orqanından alınmış razılıq~~; 40.1.6. çərçivə sazişi tətbiq edildikdə, bunu əsaslandıran səbəblər, çərçivə sazişi bağlanan təchizatçıların adları və ünvanları~~, habelə nəzarət orqanından alınmış razılıq~~; ~~40.2.4. bu Qanunun 44.4-cü maddəsində qeyd olunan satınalma metodları tətbiq edildikdə, nəzarət orqanından alınmış razılıq sənədinin surəti;~~ ~~44.4. Ehtimal olunan qiymətdən asılı olmayaraq, aşağıdakı satınalma metodları yalnız nəzarət orqanının razılığı ilə tətbiq edilə bilər:~~ 44.5. Nəzarət orqanı bu Qanunun ~~44.4-cü~~ 49.1.5-ci maddəsində qeyd olunan razılığın verilməsi ilə bağlı müraciətlərə ~~20 (iyirmi)~~10 (on) iş günü ərzində baxır. 49.2. Satınalan təşkilat bir mənbədən satınalma metodunu bu Qanunun 49.1.5-ci maddəsində nəzərdə tutulan halda tətbiq etmək ~~istədiyi halda~~istədikdə, satınalma komissiyası müəyyən etdiyi təchizatçılara təkliflərini təqdim etmək üçün ən az 5 (beş) iş günü müəyyən etməklə şərtlər toplusunu təqdim edir ~~(bu Qanunun 49.1.1-ci maddəsində qeyd olunan hal üzrə konkret təchizatçıya)~~ və eyni vaxtda bu barədə portalda bildiriş yerləşdirir.~~təklifləri alır.~~ 49.3. Satınalma komissiyası təqdim edilmiş təklifləri bu Qanunun 33-cü maddəsinə uyğun olaraq qiymətləndirir və satınalan təşkilat bu Qanunun 37.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla ~~10 (on) iş günü müddətində razılıq alınması üçün nəzarət orqanına müraciət edir~~təchizatçı ilə satınalma müqaviləsi bağlayır. ~~Müraciətdə satınalma müqaviləsinin bağlanılması nəzərdə tutulan təchizatçının seçilməsi əsaslandırılır, habelə olduğu halda digər təchizatçıların təklifləri qiymətləndirilməklə müqayisəli şəkildə göstərilir.~~ 49.4. Bu Qanunun 49.1.5-ci maddəsinə münasibətdə ~~N~~nəzarət orqanının razılığı satınalma müqaviləsinin bağlanılması üçün əsas götürülür. ~~Bir mənbədən satınalma metodunun tətbiqinə razılıq verildiyi tarixdən 30 (otuz) iş günü ərzində satınalma müqaviləsi bağlanılmadığı halda, müvafiq razılıq öz hüquqi qüvvəsini itirir.~~

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
3.	**Nəzarət** *(şikayətin verilməsi və baxılması)* Əsaslı, əsassız fərq etmədən istənilən şəxsin, istənilən yerdən, istənilən müraciətinin təhlil edilib cavab verilmə məcburiyyətinin olması. Satınalma komissiyasının yuxarı orqanı olaraq satınalan təşkilata şikayət verməklə təchizatçı faktiki vaxt itirir, çünki nəticədə şikayətə baxan yenə eyni adamlar olur. Dövlət satınalmalarına nəzarət edən qurumla şikayətlərə baxan qurumun eyni tabelikdə olması maraq toqquşması yarada bilir, qərarlara müstəqil baxıla bilinmir Şikayətlərin verilməsinə dair müddət tələbləri uyğunsuzluq yaradır. Şərtlər toplusundakı uyğunsuzluqlara dair təchizatçılar açılışa 1 dəqiqə qalmışa qədər də şikayət verə bilir, bu halda şikayət əsaslı olarsa müsabiqə ləğv edilir, prosedur yenidən başlayır bu da satınalanların narazılığına səbəb olur. Digər tərəfdən kənarlaşan təchizatçılara nəzarət orqanı yekun protokolu təsdiq edildikdən sonra məlumat verilir, bundan sonra 15 iş günü şikayət edə bilirlər. Bu müddətdə isə satınalanlar müqavilə imzaladığı şikayətlərə baxıla bilinmir, müqavilə də ləğv edilə bilinmir. Şikayətlərə baxılması vətəndaş müraciəti haqqında qanun ilə tənzimləndiyi üçün orda olan prosedurlar əsassız, şantaj xarakterli şikayətlərin verilməsinə şərait yaradır (2024-cü ildə şikayətlərin 25%-i təmin edilib, digərləri əsassız sayılıb).	Şikayətlərin yalnız portal vasitəsilə qəbul edilməsi, müraciət üçün minimal tələblərin müəyyənləşdirilməsi və şikayət müddətlərinə yenidən baxılması (məsələn şərtlər toplusu ilə bağlı şikayətlərin açılışa 5 iş günü qalana qədər, qiymətləndirmə və satınalmanın nəticələri ilə bağlı bütün şikayətlərin gözləmə müddəti bitənə qədər verilməli olması, gözləmə müddətinin 10 iş gününə qaldırılması, bu müddətdə də nəzarət orqanı tərəfindən "red flags" metodu ilə real rejimdə monitorinqin aparılması) Dövlət satınalmalarında şikayətə baxan strukturun müstəqilliyi, dayanıqlılığı təmin edilsin, qərarlarına müdaxilə edilmə riskləri minimallaşdırılan zəruri tədbirlər görülsün. Şikayətlərin verilmə məsələsi tənzimləndikdən sonra (əsassız şikayətlər azaldıqdan sonra) şikayətə münasibət kollegial qaydada verilsin. Şərtlər toplusu ilə bağlı şikayətlərin açılışa 5 iş gün qalana qədər, qiymətləndirmə bağlı şikayətlərin yalnız gözləmə müddəti bitənə qədər qəbul edilməsi, "öz hüquqlarının	1.1.15. **nəzarət orqanı** – Azərbaycan Respublikasında satınalma sahəsində dövlət nəzarətini və satınalma sahəsində şikayətlərə baxmaq öhdəliyini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum); Maddə 37. Gözləmə müddəti 37.1. Bir mənbədən satınalma metodunun tətbiq edildiyi və ya yalnız bir təklifin təqdim ediliyi hallar istisna olmaqla digər satınalma metodları tətbiq edildikdə satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, kənarlaşdırıldığı təqdirdə satınalmadan kənarlaşdırılan təchizatçıların kənarlaşdırılma səbəbləri, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə ~~satınalmadan kənarlaşdırılmamış~~təklif təqdim edən təchizatçılara bildiriş göndərməklə yanaşı, portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir. Bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və ~~5~~ 10 (~~beşon~~) iş günü ərzində qüvvədə olur. 37.2. Gözləmə müddəti təchizatçılara satınalmanın nəticələri ilə bağlı satınalan təşkilata müraciət etmək (o cümlədən nəticələrdən şikayət etmək) hüququnu verir. 37.3. Satınalma komissiyası gözləmə müddətinin qüvvədə olduğu dövrdə təchizatçıların təqdim etdiyi müraciətləri ~~(o cümlədən şikayətləri)~~ 5 (beş) iş günü ərzində araşdıraraq cavablandırır. 37.4. ~~Aparılan araşdırma zamanı s~~Satınalmanın nəticələri haqqında yekun protokol ləğv edilərək yenisi tərtib olunarsa və qalib təchizatçı dəyişərsə, bu hal üçün yenidən gözləmə müddəti tətbiq edilir. Maddə 53. Şikayət vermək hüququ 53.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın, o cümlədən satınalma komissiyasının hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından ~~inzibati qaydada,~~ nəzarət orqanına və məhkəməyə şikayət vermək hüququ vardır. 53.3. Müraciətdə aşağıdakılar öz əksini tapmalıdır: 53.3.1. müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi; 53.3.2. müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı; 53.3.3. müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı; 53.3.4. satınalma barədə məlumat (tətbiq olunduğu halda müsabiqə nömrəsi); 53.3.5. şikayətin məzmunu və yol verilən pozuntunun təchizatçıya mənfi təsiri;

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
		pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilmə" tələbi qanundan çıxarılsın. Bu halda inzibati qaydada şikayət də əhəmiyyətini itirir. Şikayət əsaslı hesab edildiyi halda müqavilə imzalanarsa satınalma müqaviləsi məbləğinin 10 (on) faizindən çox olmamaqla satınalma prosedurlarında iştirak üçün çəkilən məsrəflərin və (və ya) əldən çıxmış faydanın satınalan təşkilat tərəfindən kompensasiya olaraq ödənilməsi barədə qərar qəbul etmək səlahiyyəti verilsin -Vətəndaş müraciətləri haqqında qanunun tətbiq dairəsinə dövlət satınalmalarına dair şikayətlər şamil edilməsin. -Şikayətlər yalnız nəzarət orqanına və yalnız portal vasitəsilə göndərilsin, həmin anda satınalan təşkilata məlumat getsin. -Müraciətdə hansı məlumatların əks olunması qeyd edilsin (olmadıqda baxılmasın) - Şikayət şərtlər toplusunda təklifə dair müəyyən edilmiş formal tələblərə, o cümlədən təchizatçının həmin tələblərə uyğun olub-olmamasına dair olduqda qərar təchizatçı tərəfindən xidmət haqqı	53.3.6. bu Qanunun hansı maddəsinin tələblərinin pozulmasına dair istinadlar; 53.3.7. əsaslandırıcı sübutlar; 53.3.8. tələb olunan həll. 53.4. Şikayətin mətni oxunaqlı olmalı, şikayətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. 53.5. Bu Qanunun 53.3-cü maddəsində qeyd edilən hər hansı məlumat şikayət müraciətində öz əksini tapmadıqda və ya natamam olduqda şikayət baxılmamış saxlanılır. ~~Maddə 54. Satınalan təşkilata şikayət~~ ~~54.1. Bu Qanunun 37.1-ci maddəsində qeyd olunan satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.~~ ~~54.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.~~ ~~54.3. Şikayət gözləmə müddəti və ya bu Qanunun 54.2-ci maddəsi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.~~ ~~54.4. Satınalan təşkilat bu Qanunun 54.1-ci və 54.2-ci maddələrində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı nəzarət orqanına və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.~~ Maddə 55. Nəzarət orqanına şikayət 55.1. Təchizatçılar ~~aşağıdakı hallarda~~ nəzarət orqanına yalnız portal vasitəsilə şikayət verə bilər: ~~55.1.1. satınalma müqaviləsi qüvvəyə mindikdə;~~ ~~55.1.2. bu Qanunun 21.2-ci, 36.1.2-ci, 36.1.5-ci və 54.4-cü maddələrində göstərilən hallarda;~~ ~~55.1.3. verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.~~ 55.2. Təchizatçılar ~~bu Qanunun 55.1-ci maddəsinə əsasən öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə bu Qanunun 55.1.3-cü maddəsində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində~~ uyğunluğa dair sənədlər toplusu və ya şərtlər toplusundakı uyğunsuzluqlar barədə uyğunluq sənədlərinin və ya təkliflərin son təqdim edilməsi tarixinin bitməsinə 5 (beş) iş günü qalana qədər, digər hallar ilə bağlı gözləmə müddəti bitənə qədər nəzarət orqanına şikayət verə bilərlər. 55.3. Nəzarət orqanına şikayəti ~~təqdim edilən zaman aldıqdan sonra 1 (bir) iş günü ərzində~~ bu barədə

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
		ödənilməklə sahəvi ekspertlərin rəyi əsasında çıxarılsın. Şikayət təmin edilərsə məbləğ təchizatçıya satınalan tərəfindən ödənilsin	satınalan təşkilata portal vasitəsilə real vaxt rejimində bildiriş göndərilir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə nəzarət orqanı satınalan təşkilata portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları nəzarət orqanına təqdim edir. 55.4. Nəzarət orqanı verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir. 55.5. Nəzarət orqanı şikayəti təmin edirsə bu Qanunun 14-cü maddəsində göstərilən tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir və təchizatçı tərəfindən ödənilmiş xidmət haqqının satınalan təşkilat tərəfindən təchizatçıya ödənilməsi barədə göstəriş verir. Şikayətə dair qərar çıxarılana qədər satınalan təşkilat satınalma prosedurlarını dayandırır. 55.6. Şikayət şərtlər toplusunda təklifə dair müəyyən edilmiş formal tələblərə, o cümlədən təchizatçının həmin tələblərə uyğun olub-olmamasına dair olduqda nəzarət orqanı qərarı təchizatçı tərəfindən xidmət haqqı ödənilməklə sahəvi ekspertlərin rəyi əsasında çıxarır. Satınalma predmeti ilə əlaqədar sahəvi ekspertlərin cəlb edilməsi, nəzarət orqanına şikayət verilməsi üçün xidmət haqqının məbləğləri, onun ödənilməsi və ondan istifadə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. ~~Maddə 56. Satınalmanın dayandırılması~~ ~~Bu Qanunun 54-cü və 55-ci maddələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq nəzarət orqanının qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş günündək dayandırıla bilər. Bu müddət nəzarət orqanının əsaslandırılmış qərarı ilə 10 (on) iş günündək uzadıla bilər.~~
4.	**Təkmilləşdirmə** *(minimal məbləğ)* 10-20 min limitinin bir çox satınalan təşkilat üçün əhəmiyyətsiz qədər az olması + satınalmanın 0 manatdan başlamasının heç bir yerdə praktikada olmaması Kiçik məbləğlərə və ya müsabiqənin keçirilməsi mümkün olmayan hallara görə bir mənbə müraciətlərinin olması, bir mənbə payının 50%-i keçməsi	Dövlət satınalmaları 5 min manatdan yuxarı satınalmalara şamil edilsin Məbləğin bölünərək minimal həddin "bypass" edilməsinin qarşısının alınmasına dair maddə daxil edilsin Bütün bağlanmış müqavilələr barədə portalda ayda 1 dəfə, digər istisna edilmiş satınalmaların sayı və məbləği barədə rübdə 1 dəfə məlumat daxil	3.8. Bu Qanunun ~~3.9-cu və~~ 58-ci maddə~~lər~~inin tələbləri istisna olmaqla və 45.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla, bu Qanun ~~satınalan təşkilatın cari ilin satınalma planında nəzərdə tutulmayan və~~ bir büdcə ili ərzində ~~cəmi dəyəri~~ehtimal olunan qiyməti 10 000 (on min) manatadək (ali, 1-ci və 2-ci kateqoriya dövlət orqanları, habelə cari ilin 1 yanvar tarixinə dövlət büdcəsindən maliyyələşdirilməyən satınalan təşkilatlara münasibətdə isə 20 000 (iyirmi min) manatadək) olan satınalmalara şamil edilmir. 3.9. Bu Qanunun 3.8-ci maddəsində göstərilən halda müvafiq satınalmalarla bağlı müqavilə satınalan təşkilat tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra – informasiya sistemi) vasitəsilə imzalandıqdan sonra bu Qanunun 38.11-ci maddəsinə uyğun olaraq müvafiq məlumatlar həmin informasiya sistemi tərəfindən avtomatik şəkildə

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
		edilsin. Qeyd olunan məlumatlar əsasında monitorinq aparılaraq pozuntu olub-olmadığı aşkarlansın	dərhal portala ötürülür və ~~satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində~~ müvafiq məlumat~~ı~~ portalda dərc edilir. ~~18.5. Bu Qanunun 3.8-ci maddəsi satınalan təşkilatları planlaşdırılması mümkün olan satınalmalar üzrə satınalma planını hazırlamaq öhdəliyindən azad etmir.~~ 45.3. Satınalan təşkilat açıq ~~tender və ya ikimərhələli~~ tenderdən, habelə bu Qanunun 3.8-ci maddəsində müəyyən edilmiş minimal məbləğ məhdudiyyətindən yayınmaq və (və ya) təchizatçılar arasında rəqabəti məhdudlaşdırmaq məqsədilə eyni xüsusiyyətli (xarakterli, növlü, tipli) və ya bu Qanunun 18.10-cu maddəsinə əsasən müəyyən edilən təsnifat kodları üzrə eyni sinifdə olan oxşar satınalma predmetini ayrı-ayrı hissələrə (müqavilələrə) bölə bilməz. Fərqli ünvanlarda, o cümlədən ixtisaslaşmış təchizatçılar tərəfindən aparılan tikinti-quraşdırma işləri üzrə satınalmalar ayrı-ayrı müqavilələrə bölünə bilər.
5.	**Təkmilləşdirmə** *(ən az 3 iştirakçı)* Qeyd olunan səbəbdən ləğvlərin sayı kifayət qədər çoxdur. Beynəlxalq praktikada müsabiqə açıq elan edildiyi təqdirdə 1 iştirakçının olması belə müsabiqənin baş tutması üçün kifayət edir.	Yetərsayın 3 olma tələbinin çıxarılması	~~29.8. Satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olmamalıdır.~~ 36.1.1. bu Qanunun 45.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla, satınalmada iştirak etmək üçün təklifi ~~və təklifin təminatını~~ təqdim etmiş~~, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan~~ təchizatçıların sayı ~~üçdən~~ birdən az olduqda; ~~45.4. Bu Qanunun 29.8-ci maddəsində qeyd olunan halda açıq tender ləğv olunur və ikinci dəfə elan edilir. İkinci dəfə elan olunan açıq tenderdə bu Qanunun 29.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla, təklif təqdim edən təchizatçıların sayı azı iki olduqda, açıq tender baş tutmuş hesab olunur.~~
6.	**Təkmilləşdirmə** *(satınalma komissiyası)* Satınalma komissiyası formal xarakter daşıyır, prosesi mürəkkəbləşdirir (hər bir qərarı komissiya müzakirə edib təsdiqləməlidir), müstəqilliyi yoxdur	Komissiyaya əlavə olaraq, satınalma funksiyasının icra edilməsi həvalə edilən struktur bölmə tərəfindən də satınalmanın keçirilməsi imkanı yaradılsın (option) və satınalma komissiyasına dair tələblər sadələşdirilsin	1.1.19. satınalma komissiyası – satınalan təşkilatda satınalmanı keçirmək üçün ~~tərəfindən~~ yaradılan~~, onun adından satınalmanı keçirən və nəticəsi barədə qərar qəbul edən~~ müvəqqəti işçi qrup və ya satınalma funksiyasının icra edilməsi həvalə edilən struktur bölmə; 20.1. Satınalma komissiyasının tərkibi bu Qanunun 21.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla ~~tək sayda (azı 5 (beş) nəfər) olmaqla,~~ satınalan təşkilatın və ya satınalan təşkilatın tabe olduğu təşkilatın nümayəndələrindən və səsvermə hüququ olmadan Portalda komissiyanın qərarlarını tərtib və icra edən satınalma komissiyasının katibindən formalaşdırılır. Satınalma komissiyasının ~~sədrini və~~ üzvlərini və strukturunu (işçi qrup və ya struktur bölmə) satınalan təşkilatın rəhbəri təsdiq edir. Satınalan təşkilatın rəhbəri satınalma komissiyasının ~~sədri~~ üzvü ola bilməz. 21.2. Satınalma komissiyası bu Qanunun və bu Qanundan irəli gələn normativ hüquqi aktların

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			tələblərini pozduqda, təchizatçılar nəzarət orqanına müraciət edə bilərlər. Nəzarət orqanı satınalmanın təşkili və keçirilməsi zamanı normativ hüquqi aktların pozulmasını təsdiqləyərsə, satınalmanın nəticələri ləğv olunur və satınalan təşkilat həmin hal üzrə yeni satınalma keçirir. ~~Bu halda, qəbul olunmuş qərardan fərqlənən xüsusi rəy vermiş komissiya üzvlərindən başqa, satınalma komissiyasının sədri və digər üzvləri 5 (beş) il ərzində hər hansı satınalma komissiyasının sədri və ya üzvü olmaq hüququndan məhrum edilir.~~ 34.2. Müvəqqəti və ya daimi işçi qrup formatında fəaliyyət göstərən ~~S~~satınalma komissiyasının iclaslarında, o cümlədən satınalmanın nəticələri haqqında qərar qəbul olunarkən komissiya üzvlərinin azı dörddə üçü iştirak etməlidir. Komissiyanın qərarları komissiya sədrinin iştirakı ilə sadə səs çoxluğu ilə qəbul edilir. Komissiya üzvlərinin səsvermə zamanı bitərəf qalmasına yol verilmir. Səslər bərabər olduqda, komissiya sədrinin səsi həlledicidir. ~~34.4. Qərarlar onların qəbul olunmasında iştirak etmiş satınalma komissiyasının bütün üzvləri tərəfindən həmin gün imzalanır. Satınalma portal vasitəsilə keçirildikdə, qərarlar portalda yerləşdirildiyi andan 1 (bir) iş günü ərzində imzalanır.~~
7.	**Təkmilləşdirmə** *(təklifin təminatı)* Təklifin təminatının alınması bank xərcləri yaratdığından iştiraka marağı azaldır əlavə bürokratik əngəl yaradır. Digər tərəfdən bu təminat elektron verildiyi üçün geri qaytarılması üçün də mütləq satınalan təşkilat tərəfindən məktub yazılmalıdır, bunu da bir çox təşkilat etmədiyi üçün təminatı geri qaytara bilmirlər, zəmanət üçün banka qoyulan pulu əldə edə bilmirlər	Bankdan alınan təklifin təminatı, təchizatçı tərəfindən verilən və təklifin təminatı ilə eyni məzmunda olan təklifinin təminatına dair bəyannamə ilə əvəzlənsin və kotirovkalarda da tələb edilsin. Pozuntuya yol verildikdə təchizatçı qeyd edilən məbləği satınalan təşkilata ödəmədikdə etibarsız təchizatçı siyahısına əlavə edilsin.	1.1.27. təklifin təminatına dair bəyannamə – təchizatçının təklifi ~~(kotirovka sorğusu metodu üzrə təklif istisna olmaqla)~~ üçün satınalan təşkilat qarşısında götürdüyü öhdəliklərə görə ~~qarantiya, sığorta təminatı, akkreditiv, depozitlər və digər maliyyə aktivləri şəklində~~ özü tərəfindən verdiyi iltizam xarakterli ~~təminat~~sənəd; 16.1. Təchizatçılar bu Qanunun 35.1.4-cü, 35.1.10 – 35.1.12-ci maddələrində qeyd olunan hallarda həmin halların aşkar edildiyi gündən 5 (beş) iş günü ərzində, satınalma müqaviləsinin icra edilməsindən boyun qaçırılması və ya 1 (bir) təqvim ili ərzində 3 (üç) və ya daha çox satınalmada satınalma müqaviləsinin bağlanmasından imtina edilməsi halında və bu Qanunun 30.2-ci maddəsində müəyyən olunan məbləği qeyd edilən müddətdə ödəmədikdə isə 15 (on beş) iş günü ərzində satınalan təşkilatın əsaslandırılmış müraciəti üzrə nəzarət orqanının əsaslandırılmış qərarı ilə etibarsız təchizatçılar hesab olunurlar. 25.1.15. bu Qanuna əsasən tələb olunan ~~təklifin təminatı,~~ icra təminatı və avans təminatının növünə, formasına, məbləğinə, müddətinə, qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəfə (əgər tələb olunursa), habelə digər şərtlərə dair tələblər; 25.3. Bu Qanunun 25.1.4-cü, 25.1.6-cı, 25.1.8 – 25.1.10-cu, 25.1.13-cü və 25.1.17-ci maddələri bir

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			mənbədən satınalma metoduna, bu Qanunun 25.1.8-ci, 25.1.10-cu maddələri ~~və təklifin təminatına münasibətdə isə 25.1.15-ci maddəsi~~ kotirovka sorğusu metoduna şamil edilmir. 29.1. Təchizatçı təqdim etdiyi təklifə uyğunluq sənədlərini, təklifin təminatına dair bəyannaməni, ~~habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədləri~~ əlavə edir. Maddə 30. Təklifin təminatına dair bəyannamə 30.1. Satınalma komissiyası təklifin təminatına dair bəyannamədə ehtimal olunan qiymətin, , çərçivə sazişinə münasibətdə isə saziş müddətində bağlanması nəzərdə tutulan sadə satınalma müqavilələrinin maksimal məbləğinin ~~1-3~~2 faizi həcmində müəyyənləşdirir. Təklifin təminatına dair bəyannamədə qüvvədə olma müddəti təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır. 30.2. ~~Satınalma komissiyası qarant barəsində hər hansı tələbini, habelə təklif üçün tələb olunan təminatın növünü, formasını və digər şərtlərini şərtlər toplusunda göstərir.~~ Aşağıdakı hallarda təchizatçının təklifinin təminatına dair bəyannamədə müəyyən edilən məbləği 15 (on beş) iş günü ərzində satınalan təşkilata ödəyir ~~geri qaytarılmır~~: 30.2.1. təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə; 30.2.2. təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə; 30.2.3. təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə. 30.3. ~~Təklifin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:~~ ~~30.3.1. satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara – satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;~~ ~~30.3.2. satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara – qalib təchizatçı ilə bağlanan satınalma müqaviləsi qüvvəyə mindikdə;~~ ~~30.3.3. qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;~~ ~~30.3.4. bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;~~ ~~30.3.5. təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;~~ ~~30.3.6. qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.~~ Təchizatçı bu Qanunun 30.2-ci maddəsində müəyyən olunan müddətdə məbləği satınalan təşkilata

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			ödəmədikdə satınalan təşkilat bu barədə nəzarət orqanına müəyyən olunan müddət bitdikdən sonra 10 (on) iş günü ərzində məlumat verir. 31.2. Satınalma komissiyası təkliflərin açılışından sonra ümumilikdə ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təchizatçı təklifin təminatına dair bəyannamədə olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər. 31.3. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatınaın dair bəyannamənin qüvvədə olma müddətinin bu Qanunun 30.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirləruzadılmış hesab edilir. 32.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, və təklifin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti portalda dərc olunur. 38.5. Qalib təchizatçının bu Qanunun 38.2-ci maddəsində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatınaın dair bəyannamədə müəyyən olunan məbləğin tutulmasıgeri qaytarılmaması ilə nəticələnir.
8.	**Təkmilləşdirmə** *(çərçivə sazişi)* Çərçivə sazişi hal-hazırda tətbiq olunmasını çətinləşdirən nüanslardan biri ehtimal olunan qiymət ilə bağlıdır. Belə ki, satınalan mümkün malların siyahısını və tələbat sayını müəyyən edəndə həmin məbləğ təşkilatın o iş üçün nəzərdə tutduğu büdcədən böyük olur. Müsabiqə keçirildikdə də təchizatçı o böyük məbləğ üçün təminat almalı olur. Sazişin tətbiq dairəsi beynəlxalq praktikada mövcud olan sahələri əhatə etmir. Ən az 2 təchizatçı ilə saziş bağlamaq öhdəliyi olduğu üçün tələb cavab verən 1 təchizatçı olsa belə müsabiqə ləğv edilməli olur. Təklif təqdim edən təchizatçılar siyahıdakı bütün mallara təklif	Çərçivə sazişində ehtimal məbləğ o iş üçün nəzərdə tutulan büdcə olaraq müəyyən edilsin. Tətbiq dairəsi genişləndirilsin. Saziş bağlamaq tələbi 2-dən 1-ə salınsın Ehtimaldan yuxarı təklifin kənarlaşdırılması çərçivəyə şamil edilməsi Siyahının 90+%-ə tələbə uyğun təklif verdikdə məqbul hesab edilsin və belə tələbə cavab verən istənilən təchizatçı ilə uyğun mallar göstərilməklə sazişi bağlaya bilsin, lakin	1.1.3. çərçivə sazişi – dövri və ya təkrar tələb olunan, eyni zamanda həcminin və ümumi qiymətinin əvvəlcədən tam müəyyənləşdirilməsi mümkün olmayan müvafiq satınalma predmetinin bir büdcəüç təqvim ili ərzində satın alınması şərtlərini müəyyənləşdirən, satınalan təşkilatla tələblərə uyğun olan iki və ya daha çoxən az bir təchizatçı arasında bağlanan saziş; Maddə 50. Çərçivə sazişlərinə dair ümumi tələblər 50.1. Satınalan təşkilat və ya onun tabe olduğu təkilat nəqliyyat vasitəsi, maşın, dəzgah, avadanlıq, texnika və qurğulara dövri və ya təkrar texniki xidmətin göstərilməsi (həmin xidmətlərin ayrılmaz tərkib hissəsi olan malların təqdim edilməsi də daxil olmaqla) məqsədiləaşağıdakı hallarda bu Qanunun 44.4-cü maddəsinə uyğun olaraq açıq tender və ya kotirovka sorğusu metodlarını tətbiq etməklə çərçivə sazişi bağlaya bilər. 50.1.1. təkrar sifariş tezliyi yuxarı olan ümumi və ya hazır tipli mallar və xidmətlər satın alındıqda; 50.1.2. faktiki fövqəladə vəziyyət yaranmazdan əvvəl təchizatın davamlılığını təmin etmək məqsədilə fövqəladə vəziyyətə hazırlıq görüldükdə; 50.1.3. bütün tələbi tam qarşılamaq imkanı olan bir təchizatçı olmadıqda (birdən artıq təchizatçı seçilmək istənildikdə);

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	verə bilmədikdə kənarlaşdırılmalı olur Satınalma üçün müddət müəyyən olunmasa da çərçivə sazişi 1 büdcə ilinin sonuna kimi qüvvədə olur belə olan halda isə sazişlər ən yaxşı halda ilin əvvəli bağlanmalı olur Təklif təqdim edən hansı təchizatçılarla sazişin bağlanmalı olduğu konkret deyil, əlavə olaraq saziş məbləği anlayışı	sazişin məbləği olmasın vahid qiymətlər sazişdə göstərilsin. Sazişin müddəti 3 təqvim ilinədək uzadılsın Satınalan təşkilatın tabe olduğu təşkilat da tabeliyindəki təşkilatlar üçün satınalma keçirib çərçivə sazişi bağlaya bilsin	50.1.4. satınalan təşkilatın tabe olduğu təşkilat tərəfindən eyni mallar və ya xidmətlər alındıqda və tələblərin toplanması həcmə görə endirimə səbəb olduqda və (və ya) prosesin səmərəliliyini artırdıqda; 50.1.1. fərqli regionlarda olan müxtəlif təchizatçılarla əməkdaşlıq etmək tələb olunduqda. 51.2. Satınalan təşkilatın və ya onun tabe olduğu təşkilatın Ssatınalma komissiyası birinci mərhələdə bu Qanunla müəyyən edilmiş qaydada açıq tender və ya kotirovka sorğusu metodlarını tətbiq etməklə satınalma keçirir və tələblərə uyğun olan yekun təklifinə əsasən müəyyən edilmiş ehtimal olunan miqdarlar üzrə qiymətləndirilmiş ən aşağı qiymət təkliflərini və ya bu Qanunun 33.11-ci maddəsinə uyğun olaraq, o cümlədən icra yerinə görə ən səmərəli təklifləri təqdim edən təchizatçıyla və ya təchizatçılarla təkliflərin qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək çərçivə sazişini bağlayır. Bağlanılmış çərçivə sazişi bir büdcə ili ərzində qüvvədə olur və satınalan təşkilat üçün sifariş vermək öhdəliyini yaratmır. *51.3. Satınalma komissiyası ikinci mərhələdə tələbat yarandıqca satınalma predmetini aşağıdakı üsulların birindən istifadə edərək satın alır:* 51.3.1. tələb olunan miqdarlar üzrə çərçivə sazişi bağlanılmış təchizatçıların ilkin təklifinə çərçivə sazişində müəyyən edilmiş və satınalma predmetinin həcminə görə bir vahidinin qiymətinə tətbiq edilən güzəşt nəzərə alınmaqla qiymətlərə əsasən ən aşağı qiymət təklifini və ya bu Qanunun 33.11-ci maddəsinə uyğun olaraq ən səmərəli təklifi təqdim edən təchizatçını seçməklə; 51.3.2. birdən artıq təchizatçı ilə çərçivə sazişi bağlandıqda təklif sorğusu göndərilməklə, çərçivə sazişi bağlanmış təchizatçıların yekun təklifinə əsasən ən aşağı qiymət təklifini və ya bu Qanunun 33.11-ci maddəsinə uyğun olaraq, o cümlədən icra yerinə görə ən səmərəli təklifi təqdim edən təchizatçını seçməklə. 51.7. Bu Qanunun 35.1.7-ci, 34.3.6-cı (satınalma predmeti üzrə mal və ya xidmətlər siyahısının 90 (doxsan) faizindən az olmamaq şərtilə), 38.1 – 38.5-ci və 38.8 – 38.10-cu maddələrinin tələbləri çərçivə sazişinin tətbiq edilməsi hallarına şamil edilmir. 52.1.6. çərçivə sazişinin maksimal məbləği (nəzərdə tutulan satınalma predmeti üçün ayrılan büdcə);
9.	**Təkmilləşdirmə** *(dayanıqlı satınalma)* Dövlət satınalmaları qanunvericiliyində və aidiyyəti normativ hüquqi aktlarda dayanıqlı-yaşıl (sustainable-green) satınalma mexanizmləri yoxdur, bu da öz növbəsində beynəlxalq hesabatlarda mənfi rəyə səbəb olur	Belə tələblər qanunvericiliyə daxil edilsin	33.11. Satınalma komissiyası bu Qanunun 33.8.2-ci maddəsinə əsasən təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən yalnız satınalma predmetinin istismar, texniki xidmət və təmir xərclərini, onların göndərilməsi (görülməsi və ya göstərilməsi) müddətlərini, funksional xüsusiyyətlərini, dayanıqlı və (və ya) yaşıl satınalma predmetinin xüsusiyyətlərini və zəmanət şərtlərini nəzərə alır.

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
10.	**Təkmilləşdirmə** *(təklifin qiymətləndirilməsi)* Cari vəziyyətdə satınalan təchizatçıdan çatışmayan sənədi tələb edib-etməmək onun diskresion səlahiyyəti olduğu üçün satınalan təşkilatlar ən aşağı təklifləri kənarlaşdırmaq üçün səbəb tapa bilirlər. Digər tərəfdən də satınalanlar ən aşağı təklifi qalib etmək istədiyi zaman elə sənədlər olur ki, onu satınalanlar istəsələr belə tələb edə bilmirlər, nəzarət orqanı ən aşağı təklifi qalib etməyə imkan vermədiyi deyilərək günah nəzarət orqanında görülür. Satınalmada 20 təklif olsa da, hətta ehtimaldan yuxarı olduğuna görə kənarlaşdırsa da, satınalan bütün təklifləri qiymətləndirib ümumi və xüsusi tələblərin uyğun olub-olmadığına dair yekun protokolda qeyd yazmalıdır, bu da öz növbəsində qiymətləndirmə prosesini əsassız çox uzadır Ümumiyyətlə qalib olma ehtimalı 0-a yaxın olan 10+ sırada olan təchizatçının qiymətləndirməsinin aparılması əlavə vaxt itkisinə səbəb olur	Ən aşağı və ya ən səmərəli təklifin ümumi və xüsusi tələblərə dair təqdim etdiyi məlumatların uyğunsuzluq və ya çatışmazlıq olduqda tələb edilsin təqdim etmək üçün ən az 3 iş günü verilsin Qalib elan edilmək istənilən və ehtimal olunan qiymətdən 20% aşağı olan təchizatçıdan bütün hallarda izahat tələb edilsin Kənarlaşma üçün qanunda müəyyən edilmiş hər hansı hala görə təchizatçı satınalmadan kənarlaşdırıldıqda təchizatçının təklifinin digər nüansları qiymətləndirilməsin Bal meyarı tətbiq edilmirsə yalnız ən aşağı 3 təklif qiymətləndirilsin, əgər qiymətləndirmə zamanı ilk 3-də olan təchizatçılardan kənarlaşma olarsa o zaman ilk 3-də uyğun təkliflər olanadək sıra ilə təchizatçıların qiymətləndirməsi davam etdirilsin	33.2. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat, o cümlədən təchizatçılara dair ümumi və xüsusi tələblərlə bağlı aşkar edilmiş uyğunsuzluqlar və çatışmazlıqların aradan qaldırılması məqsədilə ən aşağı qiymət təklifini və ya ən səmərəli təklifi təqdim etmiş təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat və (və ya) sənəd tələb edir.~~tələb edə bilər~~. Ən aşağı və ya ən səmərəli təklif təqdim edən təchizatçının təklifi ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olduqda ondan təklifinə dair izahat və təsdiqedici sənədlər və ya məlumatlar tələb edilir.Təchizatçı bu cür izahatı və ya sənədi 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim edir. 33.3. Satınalma komissiyası bu Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla, şərtlər toplusunda göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir. Ən səmərəli təklifin qiymətləndirilməsi halı istisna olmaqla ən aşağı təklif təqdim etmiş ilk üçlükdə olan təchizatçıların təklifi formal tələblərə uyğun hesab edilməsə növbəti təkliflər formal tələblərə uyğun hesab edilənədək sırası ilə qiymətləndirilir. 33.4. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar olduqda~~, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur~~ və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir. 34.9. Satınalma portal vasitəsilə keçirildikdə, təkliflər onların təqdim edilməsi üçün müəyyən edilən müddət başa çatdıqdan dərhal sonra real vaxt rejimində ~~qiymət təklifinin artırılmasına uyğun olaraq~~ portal vasitəsilə elektron qaydada açılaraq satınalma komissiyasına göndərilir, satınalma kağız daşıyıcıda keçirildikdə satınalma komissiyasının iştirakı ilə açılır. Satınalma k~~K~~omissiyası bu Qanunun 31.2-ci, 37.1-ci və 38.1-ci maddələrin tələblərini nəzərə almaqla təkliflərin qüvvədə olma müddətində təklifləri qiymətləndirir, yekun qərar qəbul edir və ~~bu Qanunun 34.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla~~ satınalan təşkilatın adından bu Qanunun 15.4-cü və 38-ci maddələrinə uyğun olaraq təklifin akseptinə dair bildiriş təqdim edir. 35.3. təklifin qiymətləndirilməsi zamanı bu Qanunun 35.1-ci maddəsində müəyyən edilən hallardan hər hansı biri aşkarlandıqda təchizatçının təklifinin digər komponentləri qiymətləndirilmir
11.	**Təkmilləşdirmə** *(ehtimal olunan qiymət)* Ehtimal olunan qiymət bir çox halda büdcədən nəzərdə tutulan məbləğdən aşağı olur lakin bütün	Ehtimal olunan qiymətdən yox büdcədən yuxarı olan təkliflər kənarlaşdırılsın	35.1.7. təchizatçının təqdim etdiyi təklifin qiyməti həmin satınalma predmeti üçün nəzərdə tutulmuş büdcədən~~ehtimal olunan qiymətdən~~ yüksək olduqda; 35.1.8. təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı və ya balanslaşdırılmamış (təklif məbləğinin ən az 20

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	təkliflər ehtimalda 1 qəpik belə yüksək olduqda kənarlaşdırılmalı olur. Lakin satınalan bir müsabiqədə qənaət etdiyi halda digər müsabiqədə qənaət edilmiş məbləğ hesabına ehtimaldan da yuxarı məbləğə faktiki müqavilə bağlaya bildiyi halda müsabiqəni ləğv etməli olur. Digər tərəfdən Ehtimal əsasən müsabiqə metodlarının, elan müddətlərinin hesablanması, təkliflərin qiymətləndirilməsi, o cümlədən 20% aşağı təkliflərin müəyyən edilməsi üçün istifadə edilir. Bir mənbədən satınalma üçün bunun bir əhəmiyyəti yoxdur əksinə formallıq yaradan lazımsız prosedura çevrilir Ehtimalın portalda açıq göstərilməsi təchizatçıları o ehtimal ətrafında qiymət verməyə sövq edir. Çünki həmin məbləğdən 20% aşağı təklif olduqda satınalanlar onları kənarlaşdıra bilir. Buna görə "ağıllı təchizatçılar" çalışır mümkün olsa belə ehtimaldan 19.9%-də aşağı təklif verməsin Ehtimal əsasən müsabiqə metodlarının, elan müddətlərinin hesablanması, təkliflərin qiymətləndirilməsi, o cümlədən 20% aşağı təkliflərin müəyyən edilməsi üçün istifadə edilir. Bir mənbədən satınalma üçün bunun bir əhəmiyyəti yoxdur əksinə formallıq yaradan lazımsız prosedura çevrilir Bəzi hallarda təklif 20%-dən aşağı olmasa müəyyən mal və xidmətlərin qiymətləri kəskin aşağı və ya yuxarı olur, bu da müqavilənin tələblərə uyğun icrasında çətinliklər yaradır, tələb olunan mallar və xidmətlər təqdim edilmir.	Bir mənbədən satınalma olanda ehtimal qiymət hesablanmasın, plan portalda yerləşdirilməsin Ehtimal məbləğ təkrar gizli edilsin Ehtimal qiymətin hesablanmasında satınalana sərbəstlik verilsin, Balanslaşdırılmamış təklif anlayışı gətirilsin Ehtimal məbləğə büdcə kimi baxılmasın əgər ən aşağı təklif ehtimalda yuxarı olarsa və satınalan təşkilatın vəsaiti olarsa müsabiqə ləğv edilməsin Bir mənbədən satınalma olanda ehtimal qiymət hesablanmasın, plan portalda yerləşdirilməsin	faizini təşkil edən mallar, işlər və ya xidmətlər üçün ehtimal olunan qiymətdən ən az 20 faiz yuxarı, digər mallar, işlər və xidmətlər üçün ehtimal olunan qiymətdən 20 faiz və daha aşağı qiymətin verilməsi) olarsa, satınalma komissiyasının sorğusu əsasında təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda; 19.1. Satınalan təşkilat satınalma planını hazırlayarkən ehtimal olunan qiyməti hesablayır və təsdiq edir. Satınalan təşkilat tərəfindən ehtimal olunan qiymət təsdiq olunmadan satınalmaya başlanıla bilməz (bir mənbədən satınalma metodu ~~üzrə ehtimal olunan qiymətin hesablanması mümkün olmadığı hallar~~ istisna olmaqla).
12.	**Təkmilləşdirmə** *(güzəştli düzəliş)* Güzəştli düzəlişin faizləri beynəxalq praktikada istifadə olunan yanaşma ilə üst-üstə düşmür, xüsusilə tikinti üçün təchizatçıların təqdim etdiyi mallar yerli olsa da xüsusi rəy alan təchizatçıların ciddi məbləğ	NK qərarında güzəşt faizlərinə yenidən baxılsın, işlər üçün 7%, mallar üçün 15% tətbiq olunsun. Xidmət üçün güzəşt çıxarılsın. Eyni zamanda güzəştin tətbiq ediləcəyi	33.13. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, ehtimal olunan qiyməti 500 000 manata qədər olan yerli mənşəli ~~satınalma predmeti~~ mallar üzrə 15%, ehtimal olunan qiyməti 10 000 000 manata qədər olan yerli işlər üzrə təklifin xeyrinə ~~20 faizə qədər~~7% həcmdə satınalma güzəşti tətbiq edir. Tətbiq edilmiş satınalma güzəşti yekun protokolda qeyd olunur. Satınalma güzəşti qeyri-neft məhsullarının istehsalı sahəsində investisiyaların

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	fərqləri ilə qalib olmasına səbəb olur, bu da güzəştin məqsədinə ziddiyyət təşkil edir.	yuxarı məbləğ həddi müəyyən olunsun. İşin yerli olması metodologiyasına yenidən baxılsın	stimullaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan istehsal prosesinin hər hansı mərhələsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilən mallara da şamil edilir.
13.	**Təkmilləşdirmə** *(bir mənbədən satınalma kateqoriyaları)* Mövcud kateqoriyalar, xüsusilə "təcililik", beynəlxalq praktikada istifadə edilən kateqoriyalar ilə uyğun deyil. Bu səbəbdən beynəlxalq hesabatlarda qanun ilə bağlı iradlar səsləndirilir və mənfi rəy verilir.	Bir mənbədən satınalma kateqoriyaları UNCITRAL tələblərinə uyğunlaşdırılsın, yalnız 1 kateqoriya üzrə nəzarət orqanı ilə razılaşdırma tələb olunsun ancaq bunu etmək istəyən satınalan açıq sorğu verib alternativ təklifləri qəbul etməyə şərait yaratsın	49.1. Aşağıdakı hallarda satınalan təşkilat bu Qanunun 44.4-cü maddəsinə uyğun olaraq bir mənbədən satınalma metodunu tətbiq edə bilər: 49.1.1. satınalma predmeti yalnız hər hansı konkret təchizatçıda olduqda və ya hər hansı konkret təchizatçı həmin satınalma predmeti üzərində xüsusi hüquqlara malik olduqda və satınalma predmetinin əvəzedicisi və alternativi olmadıqda; ~~49.1.2. satınalma predmetinə təcili tələbat yarandıqda:~~ 49.1.2~~.2~~. satınalan təşkilatdan birbaşa asılı olmayan və satınalan təşkilat tərəfindən əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan hadisələr nəticəsində yaranmış fövqəladə təcili ehtiyac səbəbilə kotirovka sorğusu və ya açıq tender metodunun istifadə edilməsi belə metodlarına tətbiqinə tələb olunan vaxt baxımından məqsədəuyğun hesab edilmədikdə~~təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda bilavasitə insanların həyat və sağlamlığına vurulan ziyanın qarşısının təcili alınması məqsədilə~~; 49.1.3. satınalan təşkilat ehtiyaclarını ödəmək üçün ilkin satınalmanın effektivliyini, ilkin satınalma ilə əlaqədar təklif olunan satınalmanın məhdud ölçüsünü, qiymətin ağlabatanlığını və sözügedən mal və ya xidmətlərə alternativlərin uyğunsuzluğunu nəzərə alaraq hər hansı təchizatçıdan ~~satınalma predmetini~~ mal və ya xidməti satın aldıqdan sonra standartlaşdırma mülahizələrinə əsasən və ya mövcud satınalma predmetinə uyğunluğu təmin etmək zərurəti baxımından ~~satınalma predmetini~~mal və ya xidməti həmin təchizatçıdan satın alınması qənaətinə gəldikdə, habelə keçirilməsi planlaşdırılan satınalma texnoloji və ya müəlliflik hüququ baxımından əvvəlki satınalma predmetinin davamı olduqda; 49.1.4. ~~satınalma predmeti kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini təmin edən tələbata aid olduqda~~dövlətin əsas təhlükəsizlik maraqlarını qorumaq məqsədilə digər metodların tətbiqi məqsədəuyğun hesab edilmədikdə. 49.1.5 ~~2.1. tələbatın təcili olmasına gətirib çıxarmış halları qabaqcadan görmək qeyri-mümkün olarsa və ya bu hallar satınalan təşkilatın bilərəkdən gözləməsinin nəticəsi olmadıqda;~~ İctimaiyyətə əvvəlcədən məlumat verilməsi və rəy bildirilməsi üçün yetərli imkan yaradılması şərti ilə, nəzarət orqanının təsdiqindən sonra, yalnız konkret bir təchizatçıdan satınalma aparılması, dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi üçün zəruri hesab edildikdə və həmin siyasətin təşviqi digər heç bir təchizatçı vasitəsilə mümkün olmadıqda.

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
14.	**Təkmilləşdirmə** *(qanunun tətbiq dairəsi)* Qanunun tətbiq dairəsi satınalma predmetinə aid olmayan halları tam istisna etmədiyindən bir mənbə müraciətlərinin sayı çox olur bu da öz növbəsində çevikliyi azaldır	İstisnaların siyahısı beynəlxalq praktikaya uyğunlaşdırılsın	3.2.1. yalnız dövlət orqanı (qurumu) və ya təbii inhisar subyektləri tərəfindən təqdim edilən və qiymətləri (tarifləri) ~~dövlət~~ müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla tənzimlənən (müəyyən edilən) mallar, işlər və ya xidmətlər; 3.2.8. müşahidə şurasının (direktorlar şurasının) tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla təsdiq edilən kommersiya hüquqi şəxsləri, onların təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər və müəssisələr tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaitləri, o cümlədən məqsədli büdcə fondlarının vəsaitləri, büdcə ssudaları, subsidiyalar, dövlət zəmanəti ilə alınmış kreditlər, dövlət qrantları, yardımları, büdcədənkənar dövlət fondlarının vəsaitləri istisna olunmaqla, digər maliyyə vəsaiti hesabına alınan mallar, işlər və ya xidmətlər (bu maddədə nəzərdə tutulan kommersiya hüquqi şəxsləri tərəfindən bu Qanunu tətbiq etmək hüququnu məhdudlaşdırmır); ~~3.2.9.bu Qanunun 3.11-ci maddəsinin tələbləri nəzərə alınmaqla,~~ müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları üçün alınan mallar, işlər və ya xidmətlər . 3.2.10. Beynəlxalq, xarici və ya yerli təşkilatlara üzvlük və ya abunə haqqının ödənilməsi xidmətləri; 3.2.11. Açıq mənbələrdə qiymətləri müəyyən olunan yerli və ya xarici tədbirlərə iştirak haqqının ödənilməsi xidmətləri; 3.2.12. Açıq mənbələrdə qiymətləri müəyyən olunan xidmətlərin göstərilməsi və ya malların alınması ilə bağlı xarici saytlara onlayn ödənişlərin edilməsi; 3.2.13. Beynəlxalq sərnişin daşımaları və mehmanxana, o cümlədən ezamiyyə ilə bağlı xidmətlər; 3.2.14. Redaksiyalar ilə bağlanmış müqavilə əsasında qəzet və jurnallara abunə haqların ödənilməsi ilə bağlı xidmətlər; 3.2.15. torpağın, mövcud binaların və ya digər daşınmaz əmlakın və ya onlarla bağlı hüquqların əldə edilməsi və ya icarəyə verilməsi xidmətləri, 3.2.16. sığorta və təkrar sığorta xidmətləri, 3.2.17. audiovizual media xidmətləri və ya radio media xidmətləri üçün nəzərdə tutulmuş proqram materialının əldə edilməsi, inkişafı, istehsalı və ya birgə istehsalı, audiovizual və ya radio media xidməti təminatçıları tərəfindən seçilən və ya audiovizual və ya radio mediaya verilən yayım vaxtı və ya proqram təminatı üçün xidmət təminatçıları ilə olan müqavilələr, 3.2.18. xarici qonaqları qarşılanma və yerləşdirmə xidmətləri; 3.2.19. həmkarlar ittifaqının satınalmaları; 3.2.20. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq zəmanətli alış mexanizmi çərçivəsində alınan mallar;

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			3.2.21. bankçılıq, xəzinə, o cümlədən poçt pul köçürmələri xidmətləri; 3.2.22. əmək müqaviləsinin bağlanması; 3.2.23. müştərinin vəkil tərəfindən hüquqi təmsil olunması, bununla bağlı hüquqi yardım, arbitraj və mediasiya/uzlaşma xidmətləri; 3.2.24. fiziki çatdırılma və (və ya) anbarlama ilə əlaqədar digər qeyri-poçt funksiyalarını əhatə edən logistika, daşıma xidmətləri; 3.2.25. ....
15.	**Təkmilləşdirmə** *(maraq toqquşması)* Cari qanunvericilikdə maraqların toqquşması hallarının müəyyən edilməsi qeyri-praktikdir və bəzi hallarda tələblər konkret müəyyən edilmədiyindən bu halların aşkarlanması mümkün deyil	Maraqlar toqquşmasına dair tələblər sadələşdirilib tətbiq edilə bilən formaya salınsın	11.1.17-1. **satınalan təşkilatın vəzifəli şəxsi** – satınalan təşkilatın rəhbəri, müşahidə şurasının rəhbəri, üzvü və (və ya) iştirakçısı, satınalma prosedurlarına məsul olan və ya təsiri olan struktur bölməsinin rəhbəri satınalma qərarlarına təsir edə bilən hərəkətlər edən digər şəxslər; 1.1.26-1. **təchizatçının vəzifəli şəxsi** – təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin təsisçisi, icra orqanının, o cümlədən direktorlar şurasının (müşahidə şurasının) rəhbəri, üzvü və (və ya) iştirakçısı, struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri, habelə yalnız hüquqi əhəmiyyət kəsb edən, yəni başqa şəxslər üçün hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması ilə nəticələnən və ya nəticələnə bilən hərəkətlər edən digər şəxslər; 6.1.3. ~~təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud~~ təchizatçıların ~~azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı~~ vəzifəli şəxsləri eyni ~~şəxs~~ olduqda; 6.1.4. satınalmada təchizatçının ~~qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti~~vəzifəli şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda. 6.2. Aşağıdakı şəxslər satınalmalar zamanı satınalma komissiyasının üzvü, ~~satınalan təşkilatın nümayəndəsi,~~ kənar məsləhətçisi və ya satınalmalarla əlaqədar digər vəzifələrin icraçısı ola, o cümlədən satınalmaya dair sənədlərin hazırlanmasına cəlb edilə bilməzlər: 6.2.1. ~~təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin icra orqanının rəhbəri, təchizatçının digər işçisi və ya nümayəndəsi, habelə təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən~~ təchizatçının ~~aidiyyəti~~ vəzifəli şəxsi~~nin~~ və ya ~~nümayəndəsinin~~ təchizatçının vəzifəli

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			şəxsinin qohumları (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları), eləcə də təchizatçı ilə təsisçilik və (və ya) hüquqi və maliyyə asılılığı münasibəti olan şəxslər; 6.2.2. satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən)~~keçirilən satınalmadan~~ əvvəlki 3 (üç) il ərzində satınalmada iştirak edən təchizatçının ~~işçisi və ya~~ vəzifəli şəxsi olmuş şəxslər.
16.	**Təkmilləşdirmə** *(planlama)* Satınalmanın planlaşdırılması ilə bağlı cari qanunvericilikdə tələblər həmin mərhələnin əhəmiyyəti və riski baxımından mütənasib deyil, çox mürəkkəbdir. Bu da bir çox halda faydadan çox ziyan verir, qanunun tətbiqini çətinləşdirir.	Qanundakı satınalma planına dair bölmə sadələşdirilsin, UNCITRAL təcrübəsindən isifadə edilsin	Maddə 18. ~~Satınalmaların planlaşdırılması~~Gələcək mümkün satınalmalar barədə məlumat *(maddə yeni redaksiyada verilsin)* 18.1. Satınalan təşkilatlar qarşıdakı aylar və illər üzrə planlaşdırılan satınalma fəaliyyətləri barədə məlumat dərc edə bilərlər. 18.2. Satınalan təşkilatlar mümkün gələcək satınalmalarla bağlı qabaqcadan bildiriş də dərc edə bilərlər. 18.~~1~~13. Bu Qanunun 18-ci maddəsinə uyğun olaraq satınalma planının portalda yerləşdirilməsi təkliflərin cəlb edilməsi barədə elan verilməsi (dəvət göndərilməsi) mənasını daşımır, satınalan təşkilatın üzərinə təklifləri cəlb etmək öhdəliyini qoymur, həmçinin təchizatçılara bununla əlaqədar hər hansı hüquq vermir. (planlama istinadlar bütün digər maddələrdən çıxarılsın)
17.	**Təkmilləşdirmə** *(müqaviləyə dəyişiklik)* Sui-istifadə halları olur deyə qanunda müqaviləyə dəyişiklik etmək demək olar qadağan edilib, bu da praktikada ciddi çətinliklər yaradır, satınalan təşkilatları qeyri-formal yollara əl atmağa sövq edir..	Müqaviləyə dəyişiklik üçün beynəlxalq praktikaya uyğun çərçivələr müəyyən edilməklə dəyişikliyə icazə verilsin, lakin bu kimi halların monitorinqini aparıb sui-istifadə hallarının qabağını almaq üçün müqaviləyə dəyişiklik barədə məlumatların portala əlavə edilməsi məcburi hesab edilsin	Maddə 42. Satınalma müqaviləsində dəyişiklik 42.1. Satınalma müqaviləsi qüvvəyə mindikdən sonra aşağıdakı bütün şərtlər yerinə yetirildiyi halda satınalma proseduru keçirilmədən dəyişdirilə bilər 42.1.1. satınalan təşkilatın prognozlaşdıra bilməyəcəyi o cümlədən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş hallar ~~istisna olmaqla, müqavilənin şərtlərinin dəyişdirilməsinə yol verilmir.~~ 42.1.2. müqavilənin ümumi mahiyyətini dəyişdirmədən 42.1.3. ilkin müqavilə məbləğinin 50 (əlli) faizini keçmədən: 42.1.4. müqavilədə nəzərdə tutulmayan, lakin əvvəlki təchizatçı tərəfindən görülməsi zəruri olmuş əlavə mallar, işlər və xidmətlər və ya təchizatlar meydana çıxmışsa və təchizatçının dəyişdirilməsi iqtisadi və texniki səbəblərdən, habelə dəyişdirilmə əlavə təkrar xərclərə səbəb olarsa 42.1.5. əhəmiyyətli dəyişiklik hesab olunmazsa 42.2. Aşağıdakı hallar əhəmiyyətli dəyişiklik hesab edilir: 42.2.1. İlkin bağlanmış müqavilədən mahiyyətcə fərqli xarakter alırsa Dəyişiklik elə şərtləri təqdim edir ki, əgər həmin şərtlər ilkin satınalma proseduruna daxil edilsəydi, ilkin olaraq seçilmiş namizədlərdən fərqli

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			namizədlərin qəbuluna, yaxud ilkin olaraq qəbul olunmuş təklifdən fərqli bir təklifin seçilməsinə imkan yaradardı və ya satınalma prosedurunda əlavə iştirakçıların cəlb edilməsinə səbəb olardı; 42.2.2. Dəyişiklik müqavilənin iqtisadi balansını təchizatçının xeyrinə dəyişdirir və bu, ilkin müqavilədə nəzərdə tutulmayıb; 42.2.3. Dəyişiklik müqavilənin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirir; 42.2.4. Təchizatçı dəyişdirilirsə 42.3. Bu Qanunun 42-ci maddəsinə əsasən satınalma müqaviləsinin şərtlərinin dəyişdirilməsi barədə tərəflərin bir-birinə etdiyi yazılı müraciətlərə 10 (on) iş günü müddətində baxılır. 42.4. Satınalma müqaviləsinin, o cümlədən subpodrat müqaviləsinin məbləğində və (və ya) icra müddətində dəyişiklik, o cümlədən xitam barədə qərar qüvvəyə mindikdən sonra 10 (on) iş günü ərzində portalda məlumat yerləşdirilir. 42.~~24~~. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.
18.	**Təkmilləşdirmə** *(etibarsız təchizatçı)* Etibarsız təchizatçı reyestrinə salınma halları müəyyən edilsə də xəbərdarlıq veriləbiləcək hallar nəzərdə tutulmayıb, bu da bəzi hallarda təchizatçının çox sərt cəzalanmasına gətirib çıxarır.	Təchizatçıya xəbərdarlıq verilməsi halları da nəzərdə tutulsun	16.4. Pozuntunun ağırlıq dərəcəsindən və təchizatçının əvvəllər belə pozuntuya yol verib-verməməsindən asılı olaraq, ona xəbərdarlıq verilməsi halları və ya onun etibarsız təchizatçıların reyestrində qalma müddəti bu Qanunun 14.2.8-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilir. Təchizatçıların etibarsız təchizatçıların reyestrində qalma müddəti 3 (üç) ildən çox ola bilməz və həmin müddət ərzində təchizatçıların satınalmalarda birbaşa, müvəqqəti və ya daimi birliyin üzvü olaraq iştirakına, habelə qalib təchizatçı elan edilməsinə və ya subpodrat müqavilə bağlanmasına yol verilmir.
19.	**Təkmilləşdirmə** *(qeyri-rezidentlərin iştirakı)* Müsabiqələrdə qeyri-rezidentlərin iştirak imkanları məhdudlaşdırılıb, yalnız Azərbaycanda filial nümayəndəlik açan şirkətlər təklif təqdim edə bilir. Bu da öz növbəsində həm beynəlxalq hesabatlarda mənfi rəy gətirir, həm də dost ölkələrdən olan təchizatçıların da iştirakı məhdudlaşdığı üçün narazılıqlar olur Qeyri-rezidentlər ümumi tələblərdə müəyyən olunan arayışların heç birini verə bilmirlər, xüsusilə bir mənbədən müraciətlərində bu sənədlər olmasa da müraciətlərə müsbət baxılır	Qeyri-rezidentlərin iştirakı üçün ayrıca qeydiyyat səhifəsi yaradılıb zəruri məlumatlar tələb oluna bilər, bundan sonrakı mərhələ həmin məlumatlar əsasında təchizatçı ya sistemdə olan yoxlamadan keçib avtomatik qeydə alına bilər, ya da hansısa quruma belə bir səlahiyyət verilə bilər ki, yoxlamanı o aparıb təsdiq etsin. İlkin mərhələdə qeyri-dost ölkələrdən olan şirkətlərin qeydiyyat məlumatlarını alıb 1	23.5.1. bu Qanunun 23.3-cü maddəsində qeyd olunan tələblər – qeyri-rezidentlərə münasibətdə bu Qanunun 23.3.5-ci maddəsi və qalib təchizatçının satınalan təşkilat olduğu hallar istisna olmaqla satınalmanın bütün metodlarına; 23.9. Qeyri-rezident hüquqi və ya fiziki şəxs olan təchizatçılar Qanunun 23.3.5-ci maddəsinin tələbləri istisna olmaqla uyğunluq sənədlərini ~~Azərbaycan Respublikasında əldə edə bilmədiyi hallarda, həmin sənədləri~~ qeydiyyatda olduğu ölkədən əldə edərək qanunvericiliklə müəyyən edilmiş qaydada leqallaşdırılmaqla və ya onlara apostil verilməklə təqdim edirlər.

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
		gündən sonra "qeydə alınmadınız" mesajı verilə, digərləri isə avtomatik təsdiq oluna bilər və ya qanunvericilikdə dəyişiklik edib bu səlahiyyətlər rəsmi hansısa orqana ötürüləndən sonra bu funksiya aktivləşdirilə bilər. Qeyri-rezidentlərdən bu arayışlar tələb edilməsin (bu aradan qaldırılanda inteqrasiya ilə də problem olmaz)	
20.	**Təkmilləşdirmə** *(mərkəzləşdirilmiş satınalma)* Satınalan təşkilatlar tabeliyindəki qurumlar üçün satınalma keçirə bilmədiyindən, habelə mərkəzi satınalma qurumunun olmamasına görə ölkədə ən çox alınan mallar və xidmətləri kiçik satınalan təşkilatlar apardığı zaman mütəxəssis çatışmazlığına görə həm uyğunsuzluqlar çox olur (ləğvlər artır), həm kiçik məbləğlər olduğu zaman təchizatçılar maraq göstərmir, həm də rəqabət imkanları aşağı olur	Satınalan təşkilatlara tabeliyindəki qurum üçün satınalma keçirmək səlahiyyəti verilsin. Mərkəzi satınalma orqanı yaradılsın və onun almalı olduğu mal və xidmətlərin siyahısı müəyyən edilsin. Çərçivə sazişinin tətbiq edilməsi məcburi hesab edilsin həmin qurum tərəfindən keçirilən satınalmalara.	(geniş mövzudur, bu mərhələdə icrası real deyil)
21.	**Təkmilləşdirmə** *(digər)* Maliyyə və təcrübə göstəricilərinə dair NK qaydalarında müəyyən edilmiş tələblərdə həm uyğunsuzluqlar, həm də praktik tətbiqində çətinliklər var	Qərara dəyişiklik layihəsi hazırlansın (hazırlanıb)	
22.	**Təkmilləşdirmə** *(təkrar iştirakın təmin edilməsi)* Nəzarət orqanının qərarı ilə ləğv edilmiş satınalmalarda iştirak haqları geri qaytarılmadığından təchizatçılar arasında narazılıq yaranır, ləğv edilməyə qarşı müqavimət olur	Nəzarət orqanı da satınalmanı ləğv edəndə ləğv edilmiş satınalmada iştirak edən təchizatçılar təkrar ödəniş etmədən növbəti satınalmada iştirak edə bilsinlər	28.5. Ödənilmiş istifadə haqqı və bu Qanunun 36.1.1-ci maddəsinə uyğun olaraq satınalmanın baş tutmadığı hallar istisna olmaqla, iştirak haqqı heç bir halda geri qaytarılmır. Bu Qanunun 36.1.1-ci, ~~və~~ 36.1.6-cı və 36.1.7-ci maddələrinə əsasən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir. Bu Qanunun 36.1.1-ci maddəsinə əsasən satınalmanın ləğv edildiyi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilmədiyi təqdirdə təchizatçıların müraciətinə əsasən iştirak haqqı geri qaytarılır. (ləğv səbəbləri) 36.1.6. müsabiqə satınalma prosedurlarının pozulması ilə keçirildikdə.

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
23.	**Təkmilləşdirmə** *(təkliflərin uzadılması)* Müsabiqədə heç kim təklif verməsə belə satınalan o təklifin açılma müddətini özü uzada bilmir, müsabiqə ləğvə gedir (praktikada uzatsa da ləğv edilmir lakin qanunsuzdur)	Satınalan komissiyası təkliflərin təqdim edilmə müddəti bitənədək (hal-hazırda müddət yoxdur), o cümlədən öz təşəbbüsü ilə yetərsay təmin edilmədiyini görəndə təkliflərin təqdim edilmə müddətini uzada bilsin	27.2. Satınalma komissiyası bu Qanunun 10.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədlərinin və ya təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək uyğunluğa dair sənədlər toplusuna və ya şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə , uyğunluq sənədlərinin və ya təkliflərin təqdim edilməsi müddəti bitənədək uyğunluğa dair sənədlər toplusuna və ya şərtlər toplusunun digər şərtlərinə dəyişiklik etmədən təkliflərin təqdim edilməsi müddətini uzada, uyğunluq sənədlərinin və ya təkliflərin təqdim edilməsi müddəti bitdikdən sonra bu Qanunun 31.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla təkliflərin qüvvədə olma müddətinin uzada bilər. Dəyişikliklər portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.
24.	**Təkmilləşdirmə** *(təchizatçıların portalda açılışa qədər məxfi saxlanılması)* Satınalan təşkilatlar təklif təqdim edən təchizatçıları görəndə açılışa qədər onlara müdaxilə edib təkliflərini geri çəkmələri istənilir	Təkliflər açılanadək iştirakçılar barədə məlumatların gizli saxlanması qanunda öz əksini tapsın (portalda tətbiq edilib artıq)	8.2. Satınalma kağız daşıyıcıda həyata keçirildikdə, satınalan təşkilat təqdim olunan təkliflərə yalnız onların açılmasından sonra baxır və həmin müddətədək bu təkliflərin tamlığını, bütövlüyünü və konfidensiallığını qoruyur. Satınalma portal vasitəsilə keçirildikdə təkliflər açılanadək şərtlər toplusunu əldə etmiş və təklif təqdim etmiş təchizatçılar barədə məlumat gizli saxlanılır
25.	**Təkmilləşdirmə** *(satınalmaya dair hesabat)* Satınalmaya dair hesabatın formalaşdırılmasında tələb olunan məlumatların bir çoxu yekun protokolda olur, bu məlumatların təkrar hazırlanması satınalma prosedurunu mürəkkəbləşdirir.	Yekun protokola daxil edilən məlumatlar hesabatdan çıxarılsın	40.1. Satınalan təşkilat hər satınalma üzrə hesabat tərtib edir. Hesabatda satınalma prosedurları haqqında aşağıdakı məlumatlar əks olunur: 40.1.1. satınalma predmetinin ~~adı, miqdarı, həcmi və~~ qısa təsviri; ~~40.1.2. təklifləri təqdim etmiş təchizatçıların uyğunluq göstəriciləri~~; ~~40.1.3. ehtimal olunan qiymət və onun müəyyənləşdirilməsinin əsası;~~ 40.1.4. ~~təchizatçılar satınalmadan kənarlaşdırıldıqda və ya~~ satınalma ləğv edildikdə, bunu əsaslandıran səbəblər; 40.1.5. açıq tender, ikimərhələli tender və kotirovka sorğusu metodundan başqa digər satınalma metodları tətbiq edildikdə, bunu əsaslandıran səbəblər və nəzarət orqanından alınmış razılıq; ~~40.1.6. çərçivə sazişi tətbiq edildikdə, bunu əsaslandıran səbəblər, çərçivə sazişi bağlanan təchizatçıların adları və ünvanları, habelə nəzarət orqanından alınmış razılıq;~~ ~~40.1.7. uyğunluğa dair sənədlər toplusunun və ya şərtlər toplusunun izahı barədə istənilən sorğunun, həmçinin belə sorğulara cavabların, eləcə də bu sənədlərdəki hər hansı dəyişikliyin xülasəsi;~~ ~~40.1.8. bu Qanunun 33.10-cu maddəsinə əsasən qəbul edilmiş qərarın əsaslandırılması;~~ 40.1.9. bu Qanunun 8.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla məlumatlar açıqlandıqda, buna səbəb olmuş hallar; ~~40.1.10. məxfi məlumatlarla əlaqəli satınalma keçirildikdə, bu Qanunun 8.3-cü maddəsinə əsasən~~

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
			~~təchizatçılar və onların subpodratçıları qarşısında qoyulmuş tələblər;~~ ~~40.1.11. olan verilməsi (dəvət göndərilməsi) barədə məlumat.~~
26.	Təkmilləşdirmə *(müqavilə imzalama ardıcıllığı)* Hal-hazırda satınalan qalib təchizatçıya müqaviləni imzalamadan təqdim edir, təchizatçı müqaviləni 5 iş günü ərzində imzalayıb icra təminatını təqdim etməlidir (30 mindən çox olduqda). Ancaq praktikada təchizatçılar ikitərəfli imzalanmamış müqavilə olmadıqda icra təminatını ala bilmir və ya müqavilə imzalandıqdan sonra ala bilir bu halda isə 5 iş günü tələbini pozur	Müqavilənin imzalanması ardıcıllığı köhnə qanundakı vəziyyətə qaytarılsın, birinci satınalan imzalasın versin təchizatçıya	1.1.8. icra təminatı – qalib təchizatçının işlər üzrə satınalma müqaviləsinin icrası üçün satınalan təşkilat qarşısında götürdüyü öhdəliklərə görə qarantiya, sığorta təminatı, akkreditiv, depozitlər və digər maliyyə aktivləri şəklində verdiyi təminat; 38.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata ~~bu Qanuna əsasən tələb olunan icra təminatını~~ təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini şərtlər toplusunda müəyyən edilmiş müddət ərzində, lakin 10 (on) iş günündən gec olmayaraq imzalayır. 38.3. Satınalma müqaviləsi satınalan təşkilat tərəfindən imzalandıqdan sonra qalib təchizatçı satınalan təşkilata 10 (on) iş günü ərzində Qanunun 38.4-ci maddəsi nəzərə alınmaqla tələb olunduğu halda icra təminatını təqdim edir. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.
27.	**Təkmilləşdirmə** *(müqavilə)* Müqavilənin nümunəvi forması bütün satınalmalar üçün tələb olunur lakin bir mənbədən satınalmalarda xüsusilə satıcı bazarı olan (satıcının dominant olduğu) hallarda satıcının diktə etdiyi müqavilə imzalanmalı olur, belə olan halda isə qanunun tələbi pozulmuş olur	Bir mənbədən metodları üçün nümunəvi müqavilənin tətbiqi könüllü olsun	38.15. Satınalma predmeti üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur. Bir mənbədən satınalma metodunun tətbiqi zamanı satınalma predmeti üzrə satınalma müqaviləsinin nümunəvi formasından istifadə edilməyə bilər.
28.	**Təkmilləşdirmə** *(müqavilə ödənişlərinin izlənilməsi)* Satınalma prosedurları ideal keçirilib qalib seçilsə belə ən vacib mərhələdə nə baş verdiyini izləmək, zəruri olduqda vaxtında müdaxilə etmək mümkünsüz olur, problemlər ancaq Hesablama Palatası və ya Maliyyə Nəzarət Xidməti tərəfindən üstündən xeyli müddət keçəndən sonra aşkarlana bilir. Bir çox şikayətlərin səbəbi şikayət edən təchizatçıların haqlı olaraq qalib seçilmiş təchizatçı ilə təklif etdiyi mal və xidməti verdiyinə şübhəsi olur (qiymət çox aşağı olur deyə). Satınalanlar bu mərhələdə ya daha aşağı keyfiyyətdə malı qəbul etdikdə və ya qəbul edib deyib qəbul etmədikdə bunu	Dövlət satınalmaları prosedurları ilə bağlanmış ilə müqavilələrə real vaxt rejimində nəzarət (ödənişlər, qaimələr, müqaviləyə dəyişikliklər və təhvil-təslim) üçün hüquqi imkan yaradılsın, bu barədə məlumatları portala ötürmək və ya daxil etmək məcburi olsun	39.5. Satınalma müqaviləsi üzrə ödəmələr (o cümlədən avans ödənişi) satınalma müqaviləsində müəyyən olunmuş müddətdə ödənilmədikdə, gecikdirilmiş hər gün üçün satınalma müqaviləsində müəyyən olunmuş məbləğdə dəbbə pulu hesablanır. Dövlət büdcəsindən maliyyələşən satınalan təşkilatlar tərəfindən ödənişlərin edilməsi barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən portala ötürülür. Dövlət büdcəsindən maliyyələşməyən təşkilatlar tərəfindən ödəniş edildiyi tarixdən sonrakı 10 (on) iş günü ərzində ödənişin tarixi və məbləği barədə portala daxil edilir.

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	aşkarlamaq vaxtında mümkün olmur.		
29.	**Təkmilləşdirmə** *(kommersiya hüquqi şəxslər)* 3.2.8-ci maddədə nəzərdə tutulan kommersiya hüquqi şəxslərin tamamilə qanunun tətbiq dairəsindən çıxarılması və belə təşkilatların satınalmalarının tənzimlənməsi üçün şəffaf mexanizmlərin olmaması beynəlxalq hesabatlarda mənfi rəyə səbəb olur, eyni zamanda belə təşkilatların fəaliyyətinə dövlət və ictimai nəzarəti zəiflədir	Belə təşkilatlar tərəfindən kommersiya fəaliyyətinə görə gizli hesab edilməyən bütün satınalmalar portalda elan edilib, portalda açılsın və qalib seçilmiş təchizatçı barədə portalda məlumat yerləşdirməsi tələb edilsin.	3.2.8. müşahidə şurasının (direktorlar şurasının) tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla təsdiq edilən kommersiya hüquqi şəxsləri tərəfindən, onların təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər və müəssisələr Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaitləri, o cümlədən məqsədli büdcə fondlarının vəsaitləri, büdcə ssudaları, subsidiyalar, dövlət zəmanəti ilə alınmış kreditlər, dövlət qrantları, yardımları, büdcədənkənar dövlət fondlarının vəsaitləri istisna olunmaqla, digər maliyyə vəsaiti hesabına alınan mallar, işlər və ya xidmətlər; 3.10. Bu Qanunun 3.2.8-ci maddəsində nəzərdə tutulan kommersiya hüquqi şəxsləri tərəfindən həmin maddəyə uyğun olaraq malların, işlərin və ya xidmətlərin satın alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) idarəetməsinə verilmiş kommersiya hüquqi şəxsləri üzrə onların müşahidə şuraları (direktorlar şuraları), digər kommersiya hüquqi şəxsləri üzrə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla həmin kommersiya hüquqi şəxslərinin müşahidə şuraları (direktorlar şuraları) tərəfindən təsdiq edilir. Bu Qanunun 3.2.8-ci maddəsi həmin maddədə nəzərdə tutulan kommersiya hüquqi şəxsləri tərəfindən bu Qanunu tətbiq etmək hüququnu məhdudlaşdırmır. 15.7. Bu Qanunun 3.2.8-ci maddəsində nəzərdə tutulan kommersiya hüquqi şəxsləri kommersiya fəaliyyətinə ziyan gətirməyən azı bu Qanunun 26.1-ci maddəsinin elan müddətlərinə münasibətdə 26.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla satınalma elanlarının verilməsini, təkliflərin qəbul edilməsini və açılmasını portal vasitəsilə həyata keçirərək, qalib təchizatçı barədə bu Qanunun 38.11-ci maddəsində müəyyən edilən məlumatları müqavilə bağlandıqdan sonra 15 (on beş) iş günü ərzində portalda yerləşdirir~~14.2.7-ci, 18-ci, 38.11-ci, 15.2-ci, 24.2-ci və 26.1-ci maddələrində müəyyən edilən məlumatları və elanları özlərinin rəsmi internet səhifəsində yerləşdirməlidirlər.~~ 26.8. Satınalan təşkilatın tələbatını nəzərə almaqla elanın verilməsi (dəvətin dərc edilməsi) ilə satınalmanın keçirilməsi arasında müddət təchizatçılar tərəfindən satınalmaya hazırlığın görülməsi və təkliflərin təqdim edilməsi üçün kifayət etməlidir.
30.	**Təkmilləşdirmə** *(predmetə və təchizatçıya dair tələblər)* Daşınmaz və nəqliyyat vasitələrinə münasibətdə	Daşınmaz və nəqliyyat vasitələrinə münasibətdə arayışlar tələb edilməsin,	22.3. Satınalma predmetinin təsvirində daha əvvəl satın alınmış malın ehtiyat hissəsinə və ya sərfiyyat mallarına dari tələbin qeyd edilməsi halı istisna olmaqla hər hansı konkret əmtəə nişanına və adına, patentə, konstruksiyaya, modelə, istehsal mənbəyinə

TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
	arayışların verilməsi elektronlaşdırıla bilinmir və müvafiq qurumlardan alınması nəzərdə tutulan müddətlərdə mümkün olmur	təchizatçının öz arayışı kifayət etsin	və istehsalçıya dair tələblər və ya istinadlar qeyd edilməməlidir. Satınalma predmetinin xüsusiyyətlərini təsvir etmək mümkün olmadıqda, konkret istinadın yanında "və ya ekvivalent" sözlərindən istifadə olunmalıdır. 23.5.1. bu Qanunun 23.3-cü maddəsində qeyd olunan tələblər – qeyri-rezidentlərə münasibətdə bu Qanunun 23.3.5-ci maddəsi və qalib təchizatçının satınalan təşkilat olduğu hallar istisna olmaqla satınalmanın bütün metodlarına; 23.5.2. bu Qanunun 23.4.1-ci maddəsində qeyd olunan tələblər – açıq tender, ikimərhələli tender, qapalı tender və bir mənbədən satınalma metodlarına, habelə bu Qanunun 48.2.1-ci maddəsi istisna olmaqla işlərin və xidmətlərin satınalınması ilə bağlı kotirovka sorğusu metoduna; 23.5.3. bu Qanunun 23.4.2-ci maddəsində qeyd olunan tələblər – ~~açıq tender, ikimərhələli tender, qapalı tender və bir mənbədən satınalma metodlarına, habelə~~ işlərin satınalınması ilə bağlı ~~kotirovka sorğusu~~satınalmanın bütün metodları~~u~~na; 23.5.4. bu Qanunun 23.4.3-cü maddəsində qeyd olunan tələblər – satınalma komissiyasının mülahizəsinə əsasən işlərin və texniki imkanların olması zəruri hesab edilən xidmətlərin satınalınması ilə bağlı satınalmanın bütün metodlarına; 23.5.5. bu Qanunun 23.4.4-cü maddəsində qeyd olunan tələblər – satınalma komissiyasının mülahizəsinə əsasən işlərin və xidmətlərin satınalınması ilə bağlı satınalmanın bütün metodlarına. ~~23.6.3. bu Qanunun 23.3.3-cü maddəsində qeyd olunan tələb üzrə - daşınmaz əmlaka və nəqliyyat vasitələrinə münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi sənədlər;~~ 23.6.4. bu Qanunun 23.3.3-cü ~~(daşınmaz əmlaka və nəqliyyat vasitələrinə münasibətdə istisna olmaqla)~~, 23.3.8-ci, 23.4.1-ci, 23.4.3-cü və 23.4.4-cü maddələrində qeyd olunan tələblər üzrə – təchizatçının özü tərəfindən hazırlanmış arayış, məlumat və təsdiqedici sənədlər;
31.	**Təkmilləşdirmə** *(subpodrat)* Subpodrat barədə qanunda mövcud olan tələblərin tətbiq olunması mümkün və əlverişli deyil. Bu tələblərə görə bir çox halda təchizatçılar ümumiyyətlə subpodratçıları barədə məlumat təqdim etmirlər Bəzi hallar üçün 50% subpodrat limiti reallığa uyğun olmadığından təchizatçılar məlumatlarını süni şəkildə dəyişməyə məcbur olurlar	Subpodratçının uyğunluq göstəricilərinə görə tələblər qanundan çıxarılsın Təşkilatçılıq və idarəetmə üzrə satınalma predmetləri üçün 50% limiti tətbiq edilməsi, eləcə də subpodrat həcminin 20%-i üçün mikro, kiçik və orta	33.1. Satınalma komissiyası uyğunluq sənədlərini ~~(o cümlədən bu Qanunun 25.1.19-cu maddəsinə əsasən subpodratçının uyğunluq sənədlərini)~~ və təklifləri uyğunluğa dair sənədlər toplusunda və şərtlər toplusunda göstərilmiş meyarlara və prosedurlara əsasən qiymətləndirir. Uyğunluğa dair sənədlər toplusunda və ya şərtlər toplusunda göstərilməyən meyarlardan və prosedurlardan istifadə edilməsi qadağandır. ~~25.1.19. subpodratçının cəlb edilməsinə yol verildikdə, subpodratçıya dair ona həvalə edilən işlərin (xidmətlərin) icra edilə bilinməsi üçün bu Qanunun 23.3-cü və 23.4-cü maddələrinə uyğun olaraq müəyyən edilən minimum göstəricilər;~~ 29.1. Təchizatçı təqdim etdiyi təklifə uyğunluq sənədlərini, təklifin təminatın~~ı~~ dair bəyannaməni~~,~~

TST
TENDER SATINALMA TƏCHİZAT

S/s	İstiqamət, mövzu və problemin şərhi	Təklif olunan həll	Düzəliş edilməli maddələr
		təchizatçı tələbi çıxarılsın	~~habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədləri~~ əlavə edir. 33.1. Satınalma komissiyası uyğunluq sənədlərini ~~(o cümlədən bu Qanunun 25.1.19-cu maddəsinə əsasən subpodratçının uyğunluq sənədlərini)~~ və təklifləri uyğunluğa dair sənədlər toplusunda və şərtlər toplusunda göstərilmiş meyarlara və prosedurlara əsasən qiymətləndirir. Uyğunluğa dair sənədlər toplusunda və ya şərtlər toplusunda göstərilməyən meyarlardan və prosedurlardan istifadə edilməsi qadağandır. 35.1.1. təchizatçı ~~və (və ya) subpodratçı~~ uyğunluq göstəricilərinə cavab vermədikdə; 38.10. ~~Şərtlər toplusunda nəzərdə tutulmuşdursa, qalib təchizatçı işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz.~~ Təşkilatçılıq və idarəetmə üzrə satınalma predmetləri istisna olmaqla ~~S~~subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. ~~Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.~~

TST
TENDER SATINALMA TƏCHİZAT